## ƏDƏBİYYAT İCMALLARI

# PEDİATRİYANIN İNKİŞAF TARİXİ (AVROPA VƏ AMERİKA MƏKTƏBİ)

**İsayev İ.İ., Hacıyeva M.R., Zeynalova S.L., Mustafayeva Ş.S.**
*Azərbaycan Tibb Universiteti, Terapevtik və Pediatrik Propedevtika kafedrası*

***Açar sözlər:*** *pediatriya, inkişaf, tarix, Avropa uşaq xəstəxanaları, Amerika Pediatriya Cəmiyyəti.*

Pediatriya nədir? Bu, bir çox insan, xüsusən də uşaq vaxtı pediatra baş çəkmişlər üçün sadə bir sualdır. Pediatriya - sadəcə tibbin uşaqlara aid olan bir bölməsidir. Elədirmi? Bəli, bu, əslində belədir. Amma pediatriya ilə məşğul olan həkimlər çoxdan anlamışlar ki, uşaqlar – sadəcə böyüklərin balaca variantı deyil. Yenidoğulmuşların, körpələrin, məktəbəqədəryaşlı uşaqların və hətta yeniyetmələrin fiziki, psixi tələbat və problemləri böyüklərinkindən fərqlənir. Pediatrlar uşaqların bütün bu tələbatları ilə onların doğulduğu gündən 18 yaşlarına kimi maraqlanan ixtisas sahibləridir. "Pediatriya" sözü iki yunan sözündən əmələ gəlmişdir: paidos – uşaq, iatreia – müalicə deməkdir [1].

İki yüz ildən az yaşı olan Pediatriya nisbətən cavan tibbi ixtisas sayılır. Pediatriya inkişaf etməmişdən əvvəl körpələrin və uşaqların tibbi ehtiyacları ailələr, dost-tanışlar, akuşerlər tərəfindən təmin olunurdu; həkimlər bu populyasiyanın sağlamlığına nadir hallarda köməklik edirdilər. Pediatriyanın erkən tarixinin bəzi məqamları aşağıdakı xronologiyada verilmişdir.

Ənənəvi həkimlər qədim Yunanıstanda hələ Hippokratın vaxtından və hətta şərq mədəniyyətinin tibbi təcrübəsi nəzərə alınsa, bəlkə də lap qədimdən mövcud olsa da, pediatriya təbabətin nisbətən cavan sahəsidir [2, 3].

Əslində uşaq həkimliyi ilə bağlı ilk məlumatlar Misirlilərə məxsusdur. "Ebers Papirus"un hər 50 bölməsindən biri uşaq həkimliyi ilə əlaqədardır və buna "Ana və uşağın papirusu" deyilir. Burada döşlə əmizdirmə, qurd və göz xəstəliklərinin müalicəsi də daxil olmaqla çoxsaylı mövzular yazılmışdı. Kökləri e.ə. 1500-cü illərə qədər uzanan qədim hind mədəniyyətinin ən böyük iki tibb kitabından biri olan "Ayur-Veda"nın bir bölümü uşaq sağlamlığı və xəstəlikləri haqqındadır. Bu kitabda ana südünün vacibliyi, bəzi uşaq xəstəlikləri, yoluxucu xəstəliklər zamanı karantinin zəruriliyi və çiçək peyvəndinin xüsusi növü haqqında bəhs edilir. Elmi tibbin atası sayılan Hippokrat (b.e.ə. 460-370) uşaq xəstəlikləri mövzusunda da müxtəlif məlumatlar vermişdir. Parotit xəstəliyinin orxit törədə biləcəyini, sidik saxlaya bilməməyin səbəblərindən birinin də bel sümüyü xəstəlikləri olduğunu, badamcıqlar üzərində irinli zar və udma çətinliyi ilə gedən ölümcül bir xəstəliyin (difteriya) mövcudluğunu, diş çıxarkən ishal və qıcolma ola biləcəyini, ana südünün körpə üçün ən təbii qida olduğunu bildirmişdir. İmperator Trayan və Hadriyan dövründə Romada yaşayan Efesli Soranusun (b.e. 98-138) akuşer-mamalara köməkçi vasitə kimi yazdığı uşalqara qulluqla əlqəli 23 bölməlik əsər hətta sonrakı yüzilliklərdə belə həkimlərə vəsait olmuşdur. Soranus ana südünün yağ tərkibini və keyfiyyətini yoxlamaq üçün barmaq testini təklif etdi. Berqamalı Galen (b.e. 130-200) də uşaq həkimliyi mövzusunda Hipokrat və Soranusun təsirindən bəhrələnmiş, qulaqdan ifrazat, pnevmoniya və bağırsaq sallanması olan uşaqların xəstəlik tarixçəsini açıqlamışdır. [4].

Orta əsrlər boyunca kilsənin təzyiqi altında tamamilə dayanan elmi çalışmalar islam tibbi ilə yeni bir məna kəsb etməyə başlamışdır. Klassik Yunan tibbi İslamla inkişaf etmiş və İslam tibb biliklərini əks etdirən kitablar 600 il bütün dünyada fundamental dərs kitabları kimi oxunmuşdur. İslam həkimləri arasında uşaq sağlamlığı və xəstəlikləri ilə maraqlanan Razi (854-925) və İbn Sinadır (980–1037). Razinin Avropada "Practica Puerorum" adı ilə tanınan əsəri XII-XVL əsrlərdə nəşr olunan 20-yə qədər kitab üçün ən vacib mənbə hesab olunurdu. B.e. 990-cı ili İbn Sina qıcolma, meningit, tetanus, göbək

absesləri və qurd kimi səhhət problemləri haqqında yazılar yazmışdı [4, 5].

Qərbdə uşaq həkimliyi ilə əlaqədar ilk kitablar mətbəənin təşəkkül tapması ilə ortaya çıxmışdır. Bagellerdo (1472), Metlinger (1473), Roelants (1483) və Roesslins (1513) tərəfindən yazılan uşaq xəstəlikləri kitabları Hippokrat, Galen, Razi və İbn Sinanın düşüncələrinə əsaslanırdı. Phayre 1545-ci ildə ingiliscə ilk uşaq həkimliyi kitabını (The Book of Children) yazdı. İlk fransızca kitab isə 1565-ci ildə Simon de Vallanbert tərəfindən yazılıb. Həmin əsrdə Mercurialis biri kiçik və biri böyük olmaqla iki kitab yazmışdı. 1526-cı ildə Vidus suçiçəyinin, 1552-ci ildə İngrassia skarlatinanın, Bailau göy-öskürəyin və revmatizmin, 1594-cü ildə Colerus qızılcanın ilk dəfə olaraq diaqnozunu qoymuşlar [6].

XVII-XVIII əsrlərdə Avropada və Rusiyada pediatriyaya uşaqlıq dövründə xəstəliklərin qarşısının alınması üçün imkanlar açan müstəqil və əhəmiyyətli tibb elmi kimi böyük diqqət yetirildiyi çox sayda tibbi məktəblər açılmış, pediatrik kitabların sayı çoxalmışdır. XVII əsrdə F.Vyürs "Uşaqlar haqda kitab" (İsveçrə), Glisson raxitin klinik xarakteristikasının əks olunduğu bir yazı (İngiltərə) nəşr etdirdi. Sydenham xoreya, skarlatina, qızılca, bronxopnevmoniya üzərində çalışmış və "Uşaq xəstəlikləri haqqında" (İngiltərə) kitab yazmış, tələbəsi Harris isə yazdığı "De Morbis Acutis in İnfantum" adlı kitabında uşaq xəstəliklərindən bəzilərinin turşu-qələvi müvazinətinin pozulması nəticəsində ortaya çıxdığını müəyyən etmiş, tetanusun müalicəsində əhəng tozunun istifadəsini məsləhət görmüşdür. ABŞ-da uşaq həkimliyi mövzusunda ilk nəşr kahin Thatcherin 1678-ci ildə yazdığı "Yeni İngiltərə Əhalisinin Çiçək və Qızılcadan Qorunma Təlimatı"dır [7].

XVIII əsrdə Giovanni Battista Morgagni (1682–1771) "Xəstəliyin Yerləri və Səbəbləri" (1761) adlı kitabında əsasən uşaqlarda rast gəlinən patoloji-anatomik pozğunluqlara yer vermişdir. Zwingerin 1722-ci ildə nəşr olunan "Paidoiatreia Practica" əsərində "pediatriya" termini ilk dəfə istifadə olunmuşdur. Sağlamlıq qaydalarına daha diqqətli əməl edilməsini, uşaqların təbii qidalarla qidalanmasını, onların fiziki və əxlaqi tərbiyələrinə üstünlük verilməsini təklif edən Locke və Rousseau kimi filosofların pediatriyada nəzərəçarpan təsirləri olmuşdur. Fransız Dessartz (1760) və xüsəsən də alman Hufeland (1794 - 1799) analara uşağa qulluq məsələlərində diqqət edilməli mövzularda məqalələr yazmışdı. Yeri gəlmişkən, ilk uşaq dispanseri (Dispensory for poor children) 1767-ci ildə Armstrong tərəfindən qurulub. Cadogan, Remel və Armstrong profilaktik uşaq həkimliyinin əsasını qoyanlardır; Frank (1777-1788) uşaqların sağlamlıq şəraitinin düzəldilməsinə böyük töhvələr vermişdir. Dünyada əlil uşaqlar üçün ilk ortopedik müəssisə 1780-ci ildə İsveçrənin Orbe şəhərində Venel tərəfindən qurulmuşdur. Həmin əsrdə yaşamış uşaq həkimləri arasında Underwood poliomieliti ilk dəfə geniş şəkildə təsvir etdi. Whytt vərəm meningitini bu gün qəbul etdiyimiz formada təsvir etmiş, Bush uşaq xolerası haqqında yazmış, Struv isə süngərlə əhatə olunmuş dəlikli fişdən ibarət ilk əmziyi kəşf etmişdi. Şair-pediatr Dorxman şeir formasında yazılmış bir uşaq həkimliyi kitabını nəşr etmiş, Bard və Fotergil difteriya və skarlatina üzərində işləmişdi. Huxham difteriya parazitlərini yenidən öyrənməklə məşhurlaşmışdı. Casal və Thierry "Keçəllik xəstəliyi" adı verdikləri bir xəstəliyi müəyyən etdilər ki, daha sonra Rappoli bu xəstəliyə pellaqra adını verdi. Hamilton parotitin ağırlaşması kimi orxiti, Mellin göyöskürək öskürəyini müəyyənləşdirdi. Heberden qripp və suçiçəyi haqqında araşdırma aparmışdır [8].

Edvard Jenner 1796-cı ildə çiçəyə qarşı peyvəndin ilk testlərini həyata keçirmişdi [4].

XIX əsrdə Avropanın bir çox ölkələrində infeksion xəstəliklərin geniş yayılması, epidemiya və pandemiyaların olması nəticəsində ana və körpə ölümü göstəricilərinin yüksək olması xüsusən südəmər və uşaq yaşlarında sağlamlıq problemləri ilə məşğul olan həkimlərin inkişafına səbəb oldu. Beləliklə, "pediatriya" ixtisası yarandı. [9].

XIX əsrdə stasionar müalicə ocaqlarının açılmağa başlaması ilə tibbin digər sahələri kimi pediatriyada da vacib inkişaf baş verdi. Qərb aləmində ilk uşaq xəstəxanası – "Hôpital des Enfants Malades" (tərcüməsi "Xəstə Uşaqlar üçün Xəstəxana" adlanır) 1802-ci ildə Parisdə yaradıldı. Xəstəxana yalnız 15 yaşa qədər xəstə uşaqlara qulluqla məşhur idi. Pediatrik xidmət açılışı daha sonra Avropa-

dakı digər ölkələrə yayılmağa başlandı. Bir qədər sonra mərkəzi Vyana və Berlində yerləşən alman pediatriya məktəbi meydana çıxdı. Alman pediatrlarının tədqiqatlarının əsas istiqaməti uşaq xəstəliklərinin biokimyəvi və mikrobioloji aspektlərinin öyrənilməsi idi. Bundan dərhal sonra Rusiya, Avstriya, Polşa və İngiltərədə, Skandinaviya ölkələrində və ABŞ-da pediatrik xəstəxanalar açıldı. İngiltərədə Davis "Universal Dispensary for Sick and İndiget Children" (Tərk edilmiş ve xəstə uşaqlar üçüin xəstəxana) (1816) yaradılmasına köməklik etdi. Londonda ilk uşaq xəstəxanası 1852-ci ildə West tərəfindən (Great Ormund Street Hospital for Sick Children) yaradıldı. Berlindəki Humanitar Xəstəxananın 40 yerlik uşaq şöbəsinin müdiri olmuş Henochun pediatriya mövzusunda vacib tədqiqatları olmuşdu. Amerika Birləşmiş Ştatlarında uşaqlar üçün ilk xəstəxana 1855-ci ildə Filadelfiyada açıldı. Qeyd olunan tibb müəssisələri sonradan pediatriya üzrə mütəxəssis hazırlayan iri mərkəzlərə çevrildi. [2].

Pediatriya üzrə ilk iki dərslik 1825-ci ildə nəşr olunub: Dr. William Potts Dewey tərəfindən yazılmış "Uşaqların fiziki və tibbi müalicəsi haqda traktat" və Dr. Corc Loganın yazdığı "Uşaq xəstəliklərinin praktiki müşahidəsi" kitabı [10].

XIX əsrdə formalaşmış pediatrlardan Jörg 1826-cı ildə atelektazın, Von Elsasser 1843-cü ildə kraniotabesin, Schönlein revmatoid purpuranın təsvirini verməklə pediatriya elminə yenilik gətirmişlər. İlk uşaq xəstəxanaları dərgisi 1835-ci ildə "Analekten Über Kinder Krankenheiten" adı ilə nəşr olundu. Meissner "Grundlage der Literatur der Pediatric" adlı əsərini 1850-ci ildə nəşr etdirdi [6].

Lui Pasterin 1862-ci ildə icad etdiyi pasterizasiya üsulu sonralar 1886-cı ildə Franz von Soxhlet tərəfindən südün təhlükəsizliyinin təmini üçün tətbiq edildi [11].

Enfants-Trouvés (tərcüməsi "Uşaq Evi") Parisdə 1864-cü ildə yaradıldı. Bu, xəstəxanalarda böyüklərdə rast gəlməyən xəstəliklə xəstələnən uşaqlara qulluq üçün nəzərdə tutulmuş müalicə müəssisələrini ayırmaq üçün pilləli transformasiyanın ilk nümunəsi oldu [2].

İlk uşaq həkimləri dərnəyi 1868-ci ildə Drezdendə yaradılıb. Universitetdə ayrıca bir elm sahəsi olaraq ilk uşaq xəstəlikləri dərgisi 1862-ci ildə Roger tərəfindən verilmişdir. İlk pediatriya professorluğu 1879-cu ildə Parrota verilib [6].

Soyadı yuvenil revmatoid artrit (1897-ci ildə diplom işinin mövzusu) üçün eponim sayılan George Frederic (1868-1941) öz fəaliyyətini pediatriya ixtisasına həsr edən İngiltərəli həkimdir. O, Londondakı Kral Kollecinin uşaq xəstəlikləri üzrə ilk professoru və bir çox pediatrik məqalələrin, həmçinin uşaq xəstəlikləri sahəsində ixtisaslaşmış həkimlərin təcrübəsi üçün rəhbər hesab olunan "Uşaqların ümumi pozğunluq və xəstəlikləri" başlıqlı məşhur və gözəl yazılmış dərslik də daxil olmaqla bir neçə kitabın müəllifi idi. Lakin onun bəşəriyyətə bəxş etdiyi ən layiqli töhvə - pediatriya tarixini təəccüb doğuracaq qədər dəqiq və elmi araşdırmasıdır. [5].

Müasir pediatrların təhsilinin əsası Amerika Pediatrik Cəmiyyəti və Amerika Pediatriya Akademiyasına bağlıdır. Tibbin digər sahələri kimi pediatriya ixtisasına da keçid XX əsrin əvvəllərində Amerika Tibb Assosiasiyasının tibbi təhsili yenidən qurması və islahatlara sövq etməsindən sonra inkişaf etdi. Avraam Yakobi, Osler, Rotç və Forxhaymer kimi erkən liderləri pediatriyanın atası hesab edirdilər. Əslində Amerika Pediatriya Akademiyası özünün "İctimai pediatriyada pediatrın rolu" adlı proqram bildirişində Avraam Yakobini (1830-1919) "pediatriyanın qurucusu" adlandırır. Almaniyada doğulub təhsil alan Yakobi 1853-cü ildə Nyu-Yorkda fəaliyyətə başlamış və sonra pediatriyadan dərs demişdir. Ana südü ilə qidalanmanın fəal tərəfdarı olmağından əlavə Dr.Yakobi əmizdirməyən qadınların uşağa xam inək südü verməməsini xəbərdarlıq etmiş, həmçinin tələbənin xəstə yanında öyrədilməsi konsepsiyasını işləyib hazırlamışdı. [4].

Dr. Elizabeth Blackwell 1849-cu ildə ABŞ-dakı tibb məktəbini bitirən. sonra qadın və uşaqlar üçün Nyu-Yorkdakı tibb məntəqəsinə qayıtmaq üçün London, Şotlandiya və Parisin uşaq xəstəxanalarında təhsilini davam edən ilk qadın olmuşdur. [12].

Amerika Pediatrik Cəmiyyəti 1888-ci ildə Dr. Jobe Lewis Smith tərəfindən yaradılıb və onun ilk prezidenti sonralar Amerika Tibb Assosiasiyasının prezidenti olmuş Dr. Avraam Jacobi idi. Dr. Thomas Morgan Rotch 1893-cü ildə Harvard Tibb Məktəbində

Amerikanın ilk pediatriya professoru təyin edildi[10].

Dr. Dorothy Reed Mendenhall 1901-ci ildə Hodgkin xəstəliyinin vərəmin bir forması olmayıb, qan hüceyrələrinin bir pozğunluğu olduğunu bildirmiş, sonra pediatriyada təcrübə keçmiş və Vaşinqtonda yerləşən Uşaq Bürosunda uşaq sağlamlığı məsələləri üzrə tədqiqatlar aparmış, həmçinin uşaq inkişaf standartları və böyümə normalarını işləyib hazırlamışdır. Amerika Tibb Akademiyası tərəfindən nəşr olunan və hazırda "Pediatriya və Yeniyetmə Təbabəti Arxivləri" adlanan "Amerika Uşaq Xəstəlikləri Jurnalı" 1911-ci ilin yanvarından nəşr olunmağa başlayır. 1913-1920-ci illərdə Londonda həkim işləyən Sir Edward Mellanbi treska balığının qaraciyər yağının raxiti müalicə edə biləcəyini aşkar etmişdir. Difteriya əleyhinə peyvənd 1923-cü ildə tətbiq olunduqdan dərhal sonra, 1926-cı ildə göyöskürək peyvəndi aşkar olundu [13].

Dr. J.P.Crozier ilk dəfə olaraq özünün pediatriya üzrə "Körpə və uşaq xəstəlikləri" adlı dərsliyini dərc etmişdi ki, bu da sonradan hal-hazıra qədər istifadə olunan Nelson Pediatrik dərs kitabına çevrilmişdir; [12].

ABŞ-dakı bu günün pediatriya sahəsi öz başlanğıcını 1930-cu illərdə fəaliyyətə başlayan Amerika Pediatriya Dərnəyi və Amerika Pediatriya Akademiyasından götürüb. Əvvəlki tədqiqatlarda uşaqlar haqqında məlumat olmasa da, fərqli bir ixtisas olan pediatriya sonralar ayrılmışdır. Hazırda ayrıca bir ixtisas sahəsi olan pediatriya ABŞ-dakı Amerikan Pediatriya Dərnəyi, Amerikan Pediatriya Akademiyası və dünyanın digər ölkələrindəki analoji təşkiatlar tərəfindən təsdiq olunub tənzimlənmişdir. Amerika Pediatriya Akademiyası 1930-cu il iyunun 23-də 35 pediatrdan ibarət olan qrup tərəfindən yaradılıb [14].

1933-cü ildə süd D vitamini ilə zənginləşdirildikdən sonra raxit halları azalmağa başlayıb[11].

Patologanatom Dorothy Hansin Andersen kistik fibrozun sərbəst nozoloji vahid olduğunu qəbul edən ilk insan olmuş və bu barədə 1938-ci ildə nəşr etdirdiyi "Mədəaltı vəzin kistik fibrozu və onun seliakiya ilə əlaqəsi" adlı monoqrafiyasında bəhs etmiş, kistik fibrozun diaqnostikasına yardım etmək üçün ilk test yaradılmasına kömək etmişdir [13].

Alexander Uşaq Xəstəxanasında (indiki New-York Presbyterian Morgan Stanley Uşaq Xəstəxanası) pediatr və mikrobioloq işləyən tibb elmləri doktoru Hattie Elizabeth 1940-cı illərdə Hib meningitinin müalicəsini işləyib hazırlamışdır ki, bu da əvvəlki müalicədən daha təsirli idi [15].

1941-ci ildə həkimlər - William E.Ladd və üç il əvvəl açıq arterial axacğa ilk dəfə ligatura qoymuş Robert E.Gross müasir pediatrik cərrahiyyə üzrə "Körpəlik və uşaqlıq abdominal cərrahiyəsi" adlı ilk dərslik, 1946-cı ildə Dr. Benjamin Spok ilk dəfə "Körpə və Uşaq Baxımı" kitabını nəşr etmişlər [13].

Avstraliyalı tədqiqatçı Dr.Norman M.Gregg 1941-ci ildə anadangəlmə məxmərək haqqında məlumat vermiş, Dr. Helen Taussig və Dr. Alfred Blaloc isə 1943-cü ildə Fallo tetradalı uşaqlar üçün palliativ cərrahi müalicəni işləyib hazırlamışdılar [16].

Dr. R.L.Jackson və xanım H.J.Kelly ilk dəfə 1944-cü ildə geniş istifadə olunan pediatrik böyümə diaqramlarını dərc etdirmişlər. II Dünya Müharibəsi dövründə 900-dən çox pediatr hərbidə və hərbi dəniz tibb donanmasında xidmət etsələr də hərbi pediatriyada ilk rezidentura proqramı 1946-cı ilin noyabrında Boston Hərbi Dəniz Bazasında açılmışdır [12].

1948-ci ildə aparılan araşdırma göstərmişdir ki, yenidoğulanların 58%-i həyatının 8-ci günündən əvvəl xəstəxanadan evə yazılır, 35%-i süni qarışıqla, 27%-i həm döşlə, həm də süni qarışıqla, yalnız 38%-i sırf döşlə qidalanır[11].

Amerika Pediatriya Akademiyasının jurnalı sayılan "Pediatriya" jurnalının ilk sayı 1948-ci ildə nəşr olunub [14].

1922-ci ildə Nyu-Yorkdakı Bellevue xəstəxanasının uşaq poliklinikasına rəhbərlik edən Dr. Edith M.Lincoln 1949-cu ildən bu günədək vaxtilə ölümcül sayılan vərəm meningiti və miliar vərəmli uşaqları uğurla müalicə etmişdir [17].

"The Harriet Lane Handbook" ilk dəfə 1950-ci ildə nəşr olunmuş və pediarlar üçün çoxdan məşhur bir məlumat kitabçasına çevrilmişdir [12].

Anestezioloq Dr.Virginia Apgar 1952-ci ildə doğuşdan dərhal sonra reanimasiya üçün

uşağın reaksiyasını yoxlamaq üçün istifadə edilən "Apgar" şkalasını işləyib hazırladı [16].

Dr. Edward Press və Çikaqoda eczacılıqla məşğul olan L.Gdalman tibb elmləri doktoru Corc M.Wheatley-in uşaq təhlükəsizliyi və uşaq zəhərlənməsi riski ilə bağlı işlərinə əsaslanaraq 1953-cü ildə ilk toksikoloji mərkəz açdılar [17].

Jonas Salk-ın 1952-ci ildə işləyib hazırladığı poliomielit əleyhinə peyvənd 1962-ci ildə Albert Sabin poliomielit əleyhinə oral peyvəndi lisenziyalaşdırana qədər ABŞ-da poliomielitə qarşı mübarizə aparmaq üçün istifadə edildi [13].

1956-cı ildə 56 uşaqda poliomielit peyvəndindən sonra poliomielit xəstəliyi baş vermişdir ki, bu da Kəsici Hadisə kimi tanınmışdır [17].

La Leche liqası 1956-cı ildə qadınları döşlə əmizdirməyə təşviq etmək və butılkadan qidalanma tendensiyasını aradan qaldırmaq üçün qurulmuşdu [18].

Dr. Ethel Collins Dunham 1936-cı ildə "Yenidoğulmuş, vaxtında doğulmuş və yarımçıqdoğulmuş uşaqlara stasionar qulluq üzrə məsləhət və standartlar"ı dərc etdirdi və 1957-ci ildə Amerika Pediatrik Cəmiyyətindən çox böyük şərəf sayılan John Howland medalını aldı [12].

Ph.Dr. Francis Kelsey 1960-cı ildə FDA-da işləyərkən ABŞ-da talidomidin satışını ləğv elədi. Bu dərman 40-dan çox ölkədə hamilə qadınlara yuxugətirici kimi verilən və sonra da anadangəlmə qüsurlara səbəb olan preparatdır [16].

Uşaq kommersiya qidaları 1960-cı illərin əvvəllərində satışa başlayıb və evdə hazırlanan uşaq süni qarışıqları (qatılaşdırılmış süd üstəgəl su və dekstro-maltoz kimi əlavə şəkər) və döşlə əmizdirmə ilə rəqabət aparır [18].

1962-ci ildə K.Henri Kempe uşaq istismarına həsr olunmuş "Döyülmüş uşaq sindromu" adlı ilk məqaləsində uşaqlar üzərindəki istismarın qarşısının alınması və onun müalicəsinə yönəlmiş proqramların hazırlanması haqqında bəhs edir [10].

Dr. Robert Guthrie 1963-cü ildə yenidoğulmuş uşaqların fenilketonuriya (PKU) skrininqi üçün Guthrie testini hazırlayıb [16].

Dr. Dilip Mahalanabis 1966-cı ildə Kəlküt şəhərində (Hindistan) diareya və dehidratasiyası olan xəstələrin müalicəsi üçün özünün peroral rehidratasiya paketini (ORT) hazırlayır. 1950-60-cı illərdə ilk portativ mexaniki ventilyator kəşf olunandan sonra Forrest Bird 1970-ci ildə uşaqlarda ağciyərlərin süni ventilyasiyası üçün aşağı qiymətli ilk "Baby Bird" apparatını icad etdi [13].

İnkişaf etməkdə olan ölkələrdə döşlə əmizdirmə göstəricilərinin azalmasına və təmiz içməli suyun çatmaması səbəbindən körpə ölümlərinin baş verməsinə səbəb olmuş uşaq qida kompaniyalarının sürətlə yayılmasına etiraz etmək üçün 1977-ci ildə Nestle boykotu başlanılmışdır [18].

Autizm 1980-ci ildə ayrıca bir pozğunluq kimi "Psixi Pozğunluqlar üzrə Diaqnostik ve Statistik Vəsait-III"də verilməsinə baxmayaraq, xəstəliyin simptom və təzahürləri hələ 1911-ci ildə təsvir edilmişdir [13].

1980-ci illərin əvvəllərində ABŞ-da hər il 240-dan 770-ə qədər uşaqların ölümü ilə nəticələnən 8000-10.000 Hib meningiti halları və epiqlotit, pnevmoniya, sellulit və bakteremiya da daxil olmaqla Hib bakteriyaları tərəfindən törədilən 6000 ciddi xəstəliklər qeydə alınmışdı. Hib peyvəndi 1988-ci ildə 18 aydan 59 aya qədər olan bütün uşaqlar üçün tövsiyə olunmuşdur və daha sonra 1990-cı ildən 2 ayından başlayaraq bütün uşaqlara tətbiq edilir. 1997-ci ildə qeydə alınan invaziv Hib infeksiyası hadisələrinin sayı 99%-ə qədər azalmışdır [15].

1983-cü ildə uşaqlar üçün tövsiyə olunmuş peyvənd cədvəlinə 4 peyvənd (DTP, OPV, MMR, Td) daxil idi [13].

1986-cı ildə Dr. Meiling Hughes Gaston oraqvari hüceyrə anemiyası olan uşaqlarda infeksiyaların qarşısının alınmasında penisilinin effektivliyini sübut edən bir ümummilli tədqiqat yayımlamışdır. Bu, bütün yenidoğulmuşların oraqvari hüceyrə anemiyasına görə müayinə olunmasının zəruriliyini göstərdi [13].

Xəstəliklərin profilaktikası və onlara nəzarət mərkəzi 2007-ci ildə 150 uşaqdan birində autizm dərəcəsini göstərən bir araşdırma yayımladı [13].

Ümumdünya Səhiyyə Təşkilatı 2009-cu ilin H1N1 qrip pandemiyasının başlamasını 2009-cu il 11 iyun tarixində elan etmişdir. 1994-cü ildə Hepatit B vaksini immunlaşdırma proqramına daxil edildikdən sonra HPV

əleyhinə Cervarix peyvəndi 2009-cu ildə təsdiqlənmiş və uşaqları suçiçəyi (Varivax), pnevmokokk xəstəliyi (Prevnar), rotavirus (RotaTeq və Rotarix), meningokokk infeksiyası (Menactra) peyvəndləri vasitəsilə qarşısı alınan və get-gedə artan xəstəliklərdən qoruyan peyvəndlər siyahısına daxil olmuşdur. 2013-2014 qrip mövsümü üçün qripin 4 ştamından qorunmanı təmin edən 4-valentli peyvənd əldə edilmişdir [10].

Beləliklə, XIX əsrin sonlarına qədər uşaq xəstəliklərinin müalicəsi mövzusunda çox şey əldə olunmamışdır. Mütəxəssislər, immunoloqlar və səhiyyə işçilərinin birgə səyi nəticəsində pediatriyanın diqqət nöqtəsi dəyişdi. XX əsrin başlanğıcında uşaqların normal böyümə və inkişafına nəzarət edən ilk poliklinikalar yaradıldı. Antibiotik və peyvəndlərin geniş tətbiqi sayəsində inkişaf etmiş ölkələrdə uşaq yaşına xas olan bir çox yoluxucu xəstəliklər yox edildi, uşaq ölümü isə ən aşağı səviyyəyə endi. Pediatriyanın hüdudları uşaq sağlamlığının davranış və sosial aspektlərini əhatə edəcək dərəcədə genişlənmişdir. 20-ci əsrdə vüsət alan pediatriyanın bəzi sahələrinə maraq və tələbat artdıqca daha dar ixtisaslar yaranmağa başladı və hələ də yaranmaqda davam edir. Ümumi pediatriya ilə yanaşı pediatrlar aşağıda qeyd olunan sahələrdə ixtisaslaşa bilərlər: yeniyetmə təbabəti, pediatrik qastroenterologiya, uşaq kardiologiyası, pediatrik hemato-onkologiya, uşaq istismarı, uşaqlarda infeksion xəstəliklər, pediatrik reanimasiya və intensiv terapiya, neonatal-perinatal tibb, inkişaf-davranış pediatriyası, pediatrik nefrologiya, uşaq təcili tibbi yardım, pediatrik pulmonologiya, pediatrik endokrinologiya, uşaq revmatologiyası. Uşaq cərrahı, uşaq radiologu və ya uşaq nevroloqu və s. kimi digər pediatr mütəxəssislərin pediatr olması mütləq deyil. Bunun əvəzinə bu mütəxəssislər öz sahələrində təhsil alır və sonra uşaqlar üçün əlavə ixtisaslaşdırılmış təlimlər keçirirlər.

## ƏDƏBİYYAT:


1. John Ruhrah, M.D. “The history of pediatrics” Am J Dis Child. 1925;30(1):1-9
2. History of PediatricsNetMED PEDIATRICS.com; Sunday,December 30, 2018
3. Edmund C. Burke. Abraham Jacobi, MD: Man and His Heritage. Pediatrics, February 1998; 101: 309 – 312
4. Percy E. Luecke, Jr, MD “The history of pediatrics at Baylor University Medical Center” Proc (Bayl Univ Med Cent). 2004 Jan; 17(1): 56–60
5. Samuel X. Radbill The History of Paediatrics: The Progress of the Study of Diseases of Children up to the End of the XVIIIth Century, by George Frederic Still, M.D. London: Dawsons of Pall Mall, 1965, 526 pp., Pediatrics, June 1966, Volume 37 / Issue 6
6. Benedum J. About the history of pediatrics. İmage-Roche, 14; 1972
7. Spaulding, Mary, and Penny Welch. Nurturing Yesterday’s Child: A Portrayal of the Drake Collection of Paediatric History. Philadelphia: B. C. Decker, 1991)
8. Garrison F.G. “History of Medicine” Philadelphia: WB Saunders. 1963
9. Mahnke, C. Becket. “The Growth and Development of a Specialty: The History of Pediatrics. ” Clinical Pediatrics 39.12 (2000): 705–714.
10. Charles W. Callahan. History of Military Pediatrics: Fifty Years of Training and Deploying Uniformed Pediatricians. Pediatrics Vol. 103 No. 6 June 1999, pp. 1298-1303
11. Katherine Bain. The Incidence of Breast Feeding in Hospitals in The United States. Pediatrics, Sep 1948; 2: 313 - 320.
12. American Academy of Pediatrics. American Pediatrics: Milestones at the Millennium. Historical Archives Advisory Committee. Pediatrics 2001;107;1482-1491
13. Robert C. Brownlee, MD. Pediatric History. The American Board of Pediatrics: Its Origin and Early History. Pediatrics, Nov 1994; 94: 732 – 735
14. Declaration of the American Academy of Pediatrics Policy. The Role of Child Health in Pediatrics. Pediatrics Vol. 115 No. April 4, 2005, pages 1092-1094)

15. CDC. Prevention of current trends in secondary cases of Haemophilus influenzae type b disease. MMWR. December 24, 1982/31 (50), 672-674, 679-680

16. Obstetrics and Pediatrics in Health Care: Historical Perspectives. Pediatrics, April 1983; 71: 681 – 687

17. Edmund C. Burke. Abraham Jacobi, MD: Man and His Heritage. Pediatrics, February 1998; 101: 309 – 312

18. Herman F. Meyer. BREAST NUTRITION IN THE UNITED STATES OF AMERICA: WIDE AND POSSIBLE TENDENCIES: 1,904 Hospital Surveys in 1956, Two and a Quarter of Million Births. Pediatrics, Jul 1958; 22: 116 - 121.

## SYMMARY

## HISTORY OF DEVELOPMENT OF PEDIATRICS (EUROPEAN AND AMERICAN SCHOOL)

**Isayev I.I., Hajiyeva M.R., Zeynalova S.L., Mustafayeva Sh.S.**

*Azerbaijan Medical University, Department of Therapeutic and Pediatric Propedeutics*

***Keywords:*** *pediatrics, development, history, Avicena, Hippocrates, European Children's Hospitals, American Pediatric Society*

Throughout history, from ancient Greek times, doctors have provided medical care to people of all ages, including children. Despite this, pediatrics is a relatively new field of medicine. Traditional doctors cared for patients of any age, including young and old, with a small specialization. In fact, the first information about children's medicine belongs to the Egyptians. Information about children's medicine in Ebers papyrus, information about children's disease from Hippocrates, Ephesus Soranos, Galen, written sources from Islamic doctors Razi and Avicena indicate that doctors have been dealing with pediatric diseases since ancient times. Numerous medical schools were opened in Europe in the XVII-XVIII centuries, much attention was paid to pediatrics, the number of pediatric books increased. Then several children's pediatric societies were established in the United States/ The area of pediatrics as we know it today in the United States originates from the American Pediatric Society and the American Academy of Pediatrics. Although earlier studies and records included information about children, pediatrics as a separate specialty was highlighted later. Today, pediatrics as a specialty is certified and regulated by the American Pediatric Society and the American Academy of Pediatrics in the United States, as well as similar bodies in other countries of the world. Pediatricians can now also study and practice the specialty of pediatrics, which focuses on specific types of diseases and children's health conditions.

***İsayev İbrahim İsa oğlu***
*Azərbaycan Tibb Universiteti*
*ibrahimisayev@yahoo.com*